

**İltimas SƏMİMİ,**
*Azərbaycan Yazıçılar Birliyinin üzvü*
*Prezident mükafatçısı*

## HİCRAN QOXUYUR

Arxanca yüyürüb gələn
Acı xatirələrə dönmüş
Ürəyini köz-köz yandıran
Nakam sevgindir.
Üzündə qəm,
Gözündə yaş,
Yarpaq-yarpaq titrəyir.
Elə bil arxanca
Dəli bir külək əsir,
Çovğunlu bir qış yüyürür.
Bir az ayrılıq,
Bir az da hicran qoxuyur.
01.06.2023.

## QARLI QIŞIN VAR

Susan da gözlərın dolar buludtək,
İçində bir ümman coşub çağlayar.
Fəqət səadətsiz ömür nə gərək,
Baxıb kədərinə daş da ağlayar.

Bu bir alın yazı qarlı qış kimi,
Üşüdər bir ömür səni beləcə.
Kimsə anladımı, kimsə bildimi,
Sızladı ürəyin fəqət hər gecə.

Acı tənhalıqdan yandın məşəl tək,
Tüstüsüz yanmaqdan yaman nə olar?
Dağ boyda dərdlərə tablanan ürək,
Yağışlı payızın, qarlı qışın var.
03.06.2023.

## QƏLBİMƏ DAĞDIR

Qaçdı gözümüzün şirin yuxusu,
Birdən bu yer üzü bizə dar oldu.
Nə bir ümid qaldı, nə xoş bir arzu,
Yenə hicran oldu, intizar oldu.

Çökdü qaranlıqlar səsin gəlmədi,
Sükuta tablanmır köksümdə ürək.
Nələr çəkdiyimi kimsə bilmədi,
Tənhalıq insana ölümdür demək.

Mən dözdüm daşlar da torpaq olardı,
Mən dözdüm dağlar da uçulacaqdı.
Baxdım, dörd tərəfim borandır, qardır,
Acı xatirələr qəlbimə dağdır.
04.06.2023.

## HAYIF BOŞ ÖTƏN VAXTIMA

Daşdı deyə
Ovundura bilmədim,
Dili sükut,
Əzəldən susmağa yaranmış.
Danışdım dərdimi,
Acı xatirələrimi bir-bir,
Rəngi də bozarmadı.
Səbrim tükəndi,
Göz yaşlarım
Yaz yağışına döndü,
Ağrılarım şaha qalxdı.
Dərdimi anlamadı,
Hayıf boş ötən vaxtıma...
11.06.2023.

## YALQIZ OLMASIN

Tənha bir insanın ağrısı yaman,
Bəzən də dərdini duyan olmayır.
Gözləri yollarda darıxır hər an,
Bəxtindən bezikib günləri sayır.

Tələssə gedəsi bir mənzil də yox,
Ümidi hər şeydən üzülmüş tamam.
Möhnət ürəyinə sancılan bir ox,
Kədərdən ağlayar elə hər axşam.

Dilsiz bir heyvan da yalqız olmasın,
Boylanıb ətrafa darıxar fəqət.
Ürəyi sızlayıb, gözü dolmasın,
Yerində daş kimi dayanar, əlbət.
13.06.2023.

## NƏĞMƏLƏR QALAR

Ya torpaq olaram, ya daş olaram,
Susaram əbədi səssiz-səmirsiz.
Səsimi eşitməz nə doğma, nə yad,
Silinər yollardan bu ləpir, bu iz.

Darıxsa darıxar o mavi dəniz,
Yoxluğum ən acı bir hicran olar.
Sükuta qərq olub susar beləcə,
Qalsa məndən yenə nəğmələr qalar.

## BƏXTƏVƏR KİMİ

Bir bahar havası, bir çiçək ətri,
Bir kövrək ürəyin dərdi yox edər.
Çevirib dənizə coşub çağlıyar,
Sabaha inamla durub yol gedər.

Ümidsiz ötüşmür bircə anı da,
Əridir kədəri, əridir qəmi.
Qəlbində arzular doğulur hər gün,
Yaşayır ömrünü bəxtəvər kimi.
14.06.2023.

## ZAMAN HİCRAN DADIR

Zaman hicran dadır, vaxt acı kədər,
Qayıtmaq zülümdür xatirələrə.
Elə bil bu ömrü yaşadım hədər,
Udduğum hava da döndü zəhərə.

Qəlbimə dağ çəkən yoxuşlu yollar,
Daha yeriməyə taqətim də yox.
Mənə əzab verən ağrılarım var,
Fəqət daşımağa qəm-kədərim çox.

Nə daşlı qayayam, nə də ki dağam,
Tablanım taleyin ağrılarına.
O xoş səadətdən sanki uzağam,
Məni qaranlıqlar basıb bağrına.

Çıxıb gedməyə də bir yol tapılmır,
Bu cahan gözümdə sanki bir quyu.
Arzular saralır, ümid qırılır,
Deyirlər, - dərdini göz yaşınla yu.
17.06.2023.

## TANIŞ GƏLMƏYƏ

Gözlərinə baxıb
Dərdini unutmağın
Mümkünsüz olduğunu
Anladım.
Bəlkə bir kimsə anlamaz,
Qismətinə yazılanları.
Bəlkə haçansa
Hamı səndən
Üz döndərə...
Nə qohum,
Nə də bir dost
Səni xatırlanmaya.
Güvəndiyin insanlar
Unuda səni.
Yenə kədərə sarılıb,
Bu şəhəri küçə-küçə
Adlayasan.
Bəlkə gördüyün insanlar sənə
yad,
Binalar,
Parklar sənə tanış gəlməyə.
24.06.2023.

## FƏQƏT PEŞMANAM

Dilini bilmirəm soyuq daşların,
Ağaclar yerində səssiz dayanır.
Dünya başdan-başa sükut içində,
Ayrılıq yamandır, hicran yamandır.

Matəm libasında əngin üfüqlər,
Elə bil günəş də göz yaşın tökür.
Səbrimi əlimdən alan tənhalıq,
Həsrətdən üstümə çən, duman çökür.

Dənizdə deyiləm coşub çağlayam,
Ümidi üzülmüş tənha inasanam.
Ahımı eşitsə dağlar titrəyər,
Doğulan günümə fəqət peşmanam.
24.06.2023.

## HİCRAN DEYİLMİ

Gəlsəydi yollara durub baxmazdım,
Gəlsəydi həsrətim bitərdi tamam.
Ürəkdə yorulur, göz də yorulur,
Daha bu sevdaya qalmayıb inam.

Hicrana dözməyə ürək daş deyil,
Acı ağrılardan sızlayır o da.
Güya xəbərsizdir tənhalığımdan,
Atıb ürəyimi bir ömür oda.

Kim bilir dərdimi, nələr çəkirəm,
Bu isti bahar da mənə qış kimi.
Süzülür yollara gözümün yaşı,
Aşiqi incidən hicran deyilmi?
02.07.2023.

## GÖZLƏRİN ÜŞÜDÜR MƏNİ

Ovcundan sürüşüb düşən
Bu sükut,
Qarışdırdı yolların
Yuxusunu.
Vaxt da yaddaşları göynədən
Acı xatirələr kimidir.
Heç kim yaddaşından
Silə bilməz
Nə vaxtı,
Nə acı xatirələri...
Nəfəsin payız küləyi kimi,
Ürəyin qarlı qışı xatırladır.
Gözlərin üşüdür məni.
02.07.2023.

## ...YANDIRAN SÜKUT

Dedilər, - darıxma bitər bu həsrət,
Ürək ki daş deyil, dözə, tablana.
Başıma dar gəlir sənsiz bu dünya,
Daş da tab gətirməz acı hicrana.

Səbrin qədəri var, tükənib tamam,
Yenə baş-başayam xatirələrlə.
Min xəyal, min fikir keçir eynimdən,
Ötüşür ömürüm qəmlə, kədərlə.

İntizar çəkməkdən göz də yorulur,
Dayanır daş kimi vaxt da, zaman da.
Tənahlıq insana zülümdür, gülüm,
Üzülür ümid də, bitir güman da.

Gözümün önündə yenə də sənsən,
O baxış, o yeriş, o səs, o vicud.
O qara saçların, o ay camalın,
Bir də ürəyimi yandıran sükut.
02.07.2023.

## HƏR GECƏ

Üstü toz basmış
Oxucusu torpaqda uyuyan
Köhnə kitablar kimi,
Xatirələr söz-söz,
Sətir-sətir itəcək.
Xatırlamaz
Nə doğmalar,
Nə dostlar.
Bir cüt göz
Mərmər daşdan boylanar...
Nə üstünə bir gələn,
Nə də bir xatırlayan olar.
İllər ötər beləcə,
Ruhun əngin göyləri
Dolaşacaq hər gecə.
04.07.2023.

## BİR YOL TAPILMAZ

Üz tutub getməyə bir yol tapılmaz,
Payız yarpağına dönər arzular.
Qapılar qıfıllı, ümid də bitmiş,
Sıxar ürəyini yenə dörd divar.
Kimsə xatırlayıb çəkməz adını,
Tanrı da eşitməz bu fəryadını.

Xəyalın dörd nallı atın çapsa da,
Yanında bir kimsə görünməz fəqət.
Bir özün, bir kölgən, bir də göz yaşın,
Qəlbini yandırar acı bir həsrət.
Dözməz bu yazıya köksündə ürək,
Yenə dərd içində illər ötəcək.

Ürəyin qırılmış bir ayna kimi,
Bir zülmət bürüyər səni beləcə.
Ruhun küləklərə tuş gəlmiş çiçək,
Süzülər göz yaşın yenə hər gecə.
Sükuta qərq olar əngin üfüqlər,
Ağrın şaha qalxar açılmaz səhər.

Səbir də tükənir vaxtı çatanda,
Səbir nə ümmandır, nə qaynar bulaq
Kim bilir, bəlkə də, səbirsizlərin,
İşi tələsməkdən alınır, ancaq.
Gözlədin, illər də ötdü yel kimi.
Daşıdın qəlbində kədəri, qəmi.
05.07.2023.

## SƏN DƏ BEZİKƏRSƏN XATİRƏLƏRDƏN

Hələ bu ocağın qoru sönməyib,
Nə ümid tükənir, nə inam itir.
Hələ ki ulduzlar yerə enməyib,
Bu aylar, bu illər ömürdən gedir.
Sən də bezikərsən xatirələrdən.

Sevgi ürəkləri yandıran bir od,
Onun hicranı var, intizarı var.
Qəfil dörd yanını bürüyər sükut,
Solar yarpaq-yarpaq şirin arzular.
Sən də bezikərsən xatirələrdən.

Yadına düşərəm şər qarışanda,
Evə qayıtmağın mənsiz olacaq.
O ötən illərdən hər danışanda,
Fəqət bulud-bulud gözün dolacaq.
Sən də bezikərsən xatirələrdən.

Maraqsız olacaq sənə bu həyat,
Qalmaz dizlərində nə təpər belə
Olur qəfil elə doğmalar da yad,
Bir kimsə səadət tapmayıb hələ.
Sən də bezikərsən xatirələrdən.
08.07.2023.

## İNTİZAR

Bir qaşıq ümiddir, hələ bitməyib.
Bir damla sevincdir, hələ göyərir.
Bir ovuc duyğudur, hələ kükrəyir.
Coşur dəniz kimi,
Daşır çay kimi
Bahar təravətli
Bu saf sevgimi
Yaşatmaqdadır.

Bir qarış ömürdür, sonu bilimir.
Bir səsdir ardınca yüyürüb gəlir.
Bir bulaq suyudur, axır, hey axır.
Bir şair ruhudur günəş tək isti.
Bəzən alır məndən dərya səbrimi,
Yazdığım hər yeni şeirlərimdə
Bahar təravətli
Bu saf sevgimi
Yaşatmaqdadır.

Bir bağlı qapıdır, hələ ki bir kimsə
Aça bilməyib.
Səadət arayır, hərə özü üçün.
O da nağıllarda min ildən bəri
Dildən-dilə düşüb bitib tükənmir.
Sevən ürəklərə verdim səsimi,
Titrətdi göyləri fəryadım, ahım.
Bəlkə də, sevməkdir
Mənim günahım.
İndi də çəkirəm
İntizarını.
10.07.2023